

# Azərbaycan Respublikasının İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Ölkə Əlaqələndirmə Komissiyası haqqında

# ƏSASNAMƏ

# MÜNDƏRİCAT


## Fəsil 1: Ümumi Müddəalar

Maddə 1: ÖƏK-in Statusu
Maddə 2: ÖƏK-in Məqsədi
Maddə 3: ÖƏK-in Ümumi İdarəetmə Prinsipləri

## Fəsil 2: ÖƏK-in Vəzifələri

Maddə 4: ÖƏK-in Əsas Funksiyaları
Maddə 5: Layihə Təkliflərinin İşlənib Hazırlanma Prosesi
Maddə 6: Əsas Resipiyentin Seçilməsi
Maddə 7: ÖƏK-in Nəzarət Funksiyası

## Fəsil 3: ÖƏK Üzvlüyü

Maddə 8: ÖƏK Üzvlüyü
Maddə 9: ÖƏK Üzvlərinin Sayı
Maddə 10: ÖƏK Üzvlərinin Seçilməsi/Səlahiyyətlərin Verilməsi
Maddə 11: ÖƏK Üzvlərinin Səlahiyyət Müddəti
Maddə 12: ÖƏK Üzvlərinin Hüquqları
Maddə 13: ÖƏK Üzvlərinin Vəzifələri
Maddə 14: ÖƏK-in Əvəzedici Üzvləri
Maddə 15: ÖƏK Üzvlüyündən Geri çəkilmə və Xaric edilmə proseduru
Maddə 16: Maraqlar Toqquşması

## Fəsil 4: ÖƏK-in Strukturu

Maddə 17: ÖƏK Strukturu
Maddə 18: ÖƏK-in İdarə Heyəti
Maddə 19: ÖƏK-in Sədr və Sədr Müavini
Maddə 20: Texniki İşçi Qrupları
Maddə 21: Nəzarət Komitəsi

## Fəsil 5: ÖƏK-in İclasları

## Fəsil 6: Katiblik

## Fəsil 7: ÖƏK-in Sənədləri

## *Fəsil 1: Ümumi Müddəalar*

**Maddə 1. ÖƏK-in Statusu**

1.1 Azərbaycanda İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Ölkə Əlaqələndirmə Komissiyası (bundan sonra "ÖƏK") İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun (bundan sonra "QF") tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2004-ci il tarixli 17/5540-11 saylı razılığı əsasında təsis edilmişdir.

1.2 ÖƏK milli məşvərətçi orqan statusuna malikdir və hüquqi və fiziki şəxslərin könüllülük prinsipi əsasında qurulmuş bir çox sahələr üzrə əməkdaşlığını təmsil edir.

1.3 ÖƏK fəaliyyəti zamanı Azərbaycan Respublikasının qanunvericilik sistemini Qlobal Fondun cari Əsasnaməsi və tövsiyələrini rəhbər tutur.

1.4 ÖƏK-in Əsasnaməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilir.

**Maddə 2. ÖƏK-in Məqsədi** – Azərbaycanda İİV/QİÇS, Vərəm və Malyariyanın yayılmasına qarşı mübarizənin gücləndirilməsinə yardım etməkdir.

**Maddə 3. ÖƏK-in Ümumi İdarəetmə Prinsipləri**

ÖƏK bütün maraqlı tərəflərin fəal şəkildə iştirakı, ümumi şəffaflıq, birgə əməkdaşlıq, hesabatlıq və səmərəli fəaliyyət prinsiplərinin tərəfdarıdır.

## *Fəsil 2: ÖƏK-in Vəzifələri*

**Maddə 4: ÖƏK-in Əsas Funksiyaları**

ÖƏK-in əsas funksiyalarına aşağıdakılar daxildir:

- ÖƏK-in Azərbaycan Respublikası qanunvericilik sisteminin tələblərinə, Qlobal Fondun cari Əsasnaməsi və tövsiyələrinə uyğun olaraq təşkil olunması və səmərəli fəaliyyətinin təmin olunması;
- İİV/QİÇS, Vərəm və Malyariya üzrə milli prioritetlərə uyğun olan təklif layihələrinin koordinasiyası, işlənib hazırlanması, qiymətləndirilməsi və QF-ə və digər beynəlxalq donor təşkilatlara təqdim edilməsi;
- QF tərəfindən maliyyələşən layihələr çərçivəsində həyata keçirilən tədbirlərin milli planlar ilə bir ahəngə gətirilməsi, digər dəstəkləyici tədbirlərin əlaqələndirilməsi və resursların səfərbərliyi;
- Şəffaf və sənədləşdirilmiş seçim prosesi əsasında ÖƏK tərəfindən Əsas Resipiyentin (ƏR) seçilməsi;
- ƏR-in proqram və maliyyə fəaliyyətinə və eyni zamanda QF layihələrinin icra olunmasına nəzarət edilməsi;
- Təsdiqlənmiş hər bir layihənin birinci fazası bitdikdən sonra maliyyə dəstəyinin davam etməsi məqsədilə layihə təkliflərinin hazırlanması və QF-ə təqdim edilməsi;
- ÖƏK sənədlərinin qorunması və arxivləşdirilməsi, Qlobal Fond və digər maraqlı tərəflərlə informasiya mübadiləsinin aparılması və maraqlı şəxslər üçün əsas məlumata çıxışın təmin edilməsi.

**Maddə 5. Layihə Təkliflərinin İşlənib Hazırlanma Prosesi**

5.1. ÖƏK layihə təkliflərinin təqdim olunması üçün şəffaf və sənədləşdirilmiş prosesi təmin edir. Buraya ÖƏK üzvləri, həm də ÖƏK üzvü olmayan təşkilat və şəxslər timsalında çoxlu sayda

maraqlı şəxslərin təkliflərin işlənib hazırlanmasına və hazırlıq prosesi üçün təşkilati işlərin əlaqələndirilməsinə göstərdiyi yardımı aid etmək olar.

5.2. Ölkə üzrə layihə təkliflərinin işlənib hazırlanması və təsdiq olunması prosesi ÖƏK-in İdarəetmə Təlimatı və QF tələbləri əsasında nizama salınır.

**Maddə 6. Əsas Resipiyentin Seçilməsi**

6.1. Qrantların ƏR-i həm hökumət, həm də qeyri-hökumət təşkilatı ola bilər.

6.2. ƏR-in seçilməsi proseduru ÖƏK-in İdarəetmə Təlimatı əsasında tənzimlənir.

**Maddə 7. ÖƏK-in Nəzarət Funksiyası**

7.1. Nəzarət ÖƏK tərəfindən həm insan, həm də maddi resursların səmərəli və düzgün istifadəsi və idarə edilməsini təmin etmək məqsədi ilə sistemləşdirilmiş tədbirlər toplusu deməkdir.

7.2. Nəzarət tədbirlərinin mahiyyəti qrantın icrası zamanı ortaya çıxan bir sıra məsələlərin dərindən tədqiq edilməsi və araşdırılması və eyni zamanda onların həllinə ünvanlanmış tədbirlər haqda təkliflərinin işlənib hazırlanmasından; qrantın icrası üçün lazımi tədbirlərin həyata keçirildiyi rayonlardakı müəssisələrə səfər edilməsindən; zərurət halında, iş planındakı tədbirlərin həyata keçirilməsi zamanı ƏR-ə dəstək olunmasından; ƏR-ə texniki yardım göstərilməsinin təmin edilməsindən və bu cür yardım üçün tələb olunan texniki ekspertiza və maliyyə dəstəyinin səfərbər edilməsindən ibarət ola bilər.

7.3. Nəzarət Katibliyin maliyyə, təchizat və informasiya dəstəyi vasitəsilə təsdiq olunmuş Nəzarət Planına uygun olaraq Nəzarət Komitəsi tərəfindən həyata keçirilir.

## *Fəsil 3: ÖƏK Üzvlüyü*

**Maddə 8: ÖƏK Üzvlüyü**

8.1. Azərbaycan ərazisində qanuni şəkildə fəaliyyət göstərən hər hansı bir təşkilatın nümayəndəsi, vətəndaşlığından asılı olmayaraq ÖƏK üzvü ola bilər. ÖƏK üzvlüyü və iştirakı ödənişli deyil. Üzvlük bu və ya digər bir şəxsin İİV, vərəm və malyariya ilə mübarizəyə könüllü şəkildə yardım göstərməsini ifadə edir.

8.2. ÖƏK heyətinə dövlət və qeyri-hökumət sektorlarının nümayəndələri daxildir.

8.3. **Dövlət sektorundan** İİV/QİÇS, vərəm və malyariya ilə mübarizəyə cəlb olunan mərkəzi və yerli icra orqanları, ixtisaslaşmış ali təhsil müəssisələri və digər maraqlı hökumət təşkilatları ÖƏK-ə üzv ola bilərlər.

8.4. **Qeyri-hökumət sektorundan** isə müxtəlif maraqlı təşkilatlar ÖƏK-ə üzv ola bilərlər:

- İİV və vərəm ilə yaşayan şəxslərin icma qurumları;
- Qadınlar, gənclər, azlıqlar, zəif qrupların maraqlarını təmsil edən qeyri-hökumət təşkilatları (məsələn İİV/QİÇS və/ və ya vərəmə yoluxmuş və bu infeksiyadan zərər çəkmiş insanların təmsil olunduğu təşkilatlar və birliklər);
- Dini qurumlar;
- Peşə ittifaqları və ictimai birliklər;
- Akademik assosiasiyalar və birliklər;
- Özəl sektor nümayəndələri;
- İİV/QİÇS, vərəm və malyariya infeksiyaları ilə mübarizədə və digər səhiyyə sahələrində texniki yardım göstərən beynəlxalq qeyri-hökumət təşkilatları.

8.5. Qeyri-hökumət sektorundan olan ÖƏK üzvləri özlərinin və öz təşkilatlarının maraqlarını deyil, onları seçən sektorların maraqlarını təmsil edirlər.
8.6. Qeyri-hökumət sektorunun nümayəndələrinin sayı ÖƏK üzvlərinin ümumi sayının 40 faizindən az olmamalıdır.

**Maddə 9: ÖƏK Üzvlərinin Sayı**

ÖƏK 29 üzvdən ibarətdir. Üzvlərin sayını ÖƏK özü təyin edir və bu say dəyişilə bilər. ÖƏK üzvlərinin sayının və/ və ya tərkibinin dəyişilməsi barədə Qlobal Fondu mütləq şəkildə məlumatlandırmalıdır.

**Maddə 10: ÖƏK üzvlərinin Seçilməsi/Səlahiyyətlərin Verilməsi**

ÖƏK heyətinə üzvlərin seçilməsi/səlahiyyətlərin verilməsi ÖƏK-in İdarəetmə Təlimatı ilə tənzimlənir. ÖƏK üzvlüyünə namizədliyin irəli sürülməsinin əsas prinsipləri aşağıdakılardır:

- Dövlət orqanlarının nümayəndələri ÖƏK heyətinə öz nazirlikləri və müəssisələri tərəfindən nümayəndə kimi göndərilirlər;
- akademik/təhsil müəssisələrinin nümayəndələri ÖƏK heyətinə öz akademik təşkilat və müəssisələri tərəfindən seçilirlər;
- yerli qeyri-hökumət təşkilatları ÖƏK heyətinə öz nümayəndələrini QF-in tövsiyələrinə uyğun, ÖƏK-in İdarəetmə Təlimatında göstərilən və sektor daxili təsdiqlənmiş prosedurlara uyğun bir şəkildə seçirlər;
- xəstəliklə yaşayan insanların nümayəndələri ÖƏK üzvlüyünə təsdiqlənmiş prosedurlara uyğun olaraq öz icmaları tərəfindən seçilirlər. Xəstəliklə yaşayan insanların təşkil olunmuş icması olmadığı zaman bu qrupun nümayəndələri ÖƏK-in qərarına əsasən fərdi qaydada üzvlüyə qəbul edilə bilərlər;
- beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələri həmin təşkilatların öz daxilində qəbul etmiş olduqları prosedurlara əsasən seçilirlər;
- BMT qurumlarının nümayəndələri həmin təşkilatların öz aralarında qəbul etmiş olduqları prosedurlara əsasən seçirlər;
- Beynəlxalq ikitərəfli əməkdaş təşkilatlar öz aralarındakı prosedurlara müvafiq olaraq ÖƏK heyətinə öz təşkilatlarından nümayəndə seçirlər.

**Maddə 11: ÖƏK Üzvlərinin Səlahiyyət Müddəti**

ÖƏK üzvləri yenidən seçilmək hüququna malik olmaqla 3 il müddətinə seçilirlər/səlahiyyətlər verilir.

**Maddə 12: ÖƏK Üzvlərinin Hüquqları**

ÖƏK üzvlərinə aşağıdakı hüquqlar verilmişdir:

- Təkliflərin işlənib hazırlanmasında iştirak etmək;
- Qrantların icra olunmasına nəzarəti təmin etmək;
- Qrantların Əsas Resipiyentlərinin seçilməsi prosesində iştirak etmək;
- ÖƏK-in gündəliyində bir sıra məsələlər qaldırmaq;
- ÖƏK tərəfindən barəsində qərar qəbul ediləcək hər hansı bir məsələ ilə bağlı səs vermək;
- ÖƏK-in bütün müzakirə və iclaslarında iştirak etmək;
- Sədr və Sədr müavini vəzifəsi üçün namizədlər irəli sürmək;
- Qrantların icra olunması ilə əlaqədar ətraflı məlumat əldə etmək;

- ÖƏK-in bütün iclasları və həmin iclasların nəticələri barədə əvvəlcədən bildirişlər almaq.

**Maddə 13: ÖƏK Üzvlərinin Vəzifələri**

ÖƏK üzvləri aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

- ÖƏK iclaslarında iştirak etmək, yaxud iştirak etmənin mümkünsüzlüyü halında, əvəzedici üzvlərin iştirakını təmin etmək;
- ÖƏK funksiyalarının həyata keçirilməsində iştirak etmək;
- öz sektorların maraqlarını təmsil etmək və onlara hesabat vermək;
- ÖƏK-də yaradılan işçi qrup və komitələrə üzv olmaq;
- ÖƏK Katibliyi ilə əməkdaşlıq etmək;
- Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasəti və Prosedurları ilə tanış olmaq, maraqlar toqquşması mövcudluğunun qəbul edilməsi barədə bəyanatı doldurmaq (yeni üzvlər ÖƏK-ə üzv qəbul olunduqdan sonra Maraqlar Toqquşmasının Qarşısının Alınması və Prosedurlarının qəbul edilməsi barədə bəyanatı doldurmalıdırlar) və hər hansı bir maraqlar toqquşması halını bildirmək.

**Maddə 14: ÖƏK-in əvəzedici üzvləri**

14.1. ÖƏK üzvlərindən hər birini seçərkən/səlahiyyət verərkən onu seçən/səlahiyyət verən təşkilat və ya sektor ÖƏK-in əvəzedici üzvünü (əvəzedici) də seçir.

14.2. Əvəzedici üzv ÖƏK üzvü olmadıqda həmin üzvünün təmsil etdiyi sektoru və ya təşkilatı təmsil edir və ÖƏK-in fəaliyyətində iştirak edir.

14.3. ÖƏK üzvünü əvəz edərkən, əvəzediciyə əvəz etdiyi şəxsin ÖƏK çərçivəsindəki səlahiyyətləri verilir.

14.4. Sədr və Sədr müavini vəzifələrinə seçilən ÖƏK üzvlərinin əvəzediciləri öz təşkilatlarının maraqlarını təmsil etməyi davam etdirə bilərlər. Lakin onlar Sədr və Sədr müavinlərini vəzifələrinin icrası zamanı əvəz edə bilməzlər.

**Maddə 15: ÖƏK üzvlüyündən geri çəkilmə və xaric edilmə proseduru**

15.1. ÖƏK-in hər bir üzvü öz istəyi ilə və yaxud onun namizədliyini irəli sürmüş təşkilat və ya sektorun əsaslandırılmış qərarı əsasında ÖƏK heyətindən çıxa bilər. Bu məqsədlə həmin şəxs və ya həmin şəxsin namizədliyini irəli sürmüş təşkilat ÖƏK Sədrini və ya Sədr Müavinini və Katibliyi xəbərdar edir, daha sonra isə ÖƏK üzvləri bu barədə məlumatlandırılır və yeni ÖƏK üzvünün seçilməsi üçün çağırış elan edilir. Mövcud vəziyyətdə, ÖƏK-dən öz nümayəndəsini geri çəkən təşkilat və ya sektor və digər maraqlı QHT-lər ÖƏK tərəfindən təsdiq olunması üçün yeni namizəd irəli sürə bilərlər.

15.2. ÖƏK istənilən üzvünü öz heyətindən xaric etmə hüququna sahibdir. ÖƏK üzvünün ÖƏK tərəfindən xaric edilməsi üçün qanuni əsaslarla üzvün öz vəzifələrini yerinə yetirməməsini, il ərzində əsaslı bir səbəb göstərmədən 1 dəfədən çox olmaqla ÖƏK iclasında iştirak etməməsini və əvəzedicinin iştirakını təmin etməməsini, ÖƏK üzvünə həvalə edilmiş vəzifə səlahiyyətlərindən sui-istifadə etməsini, maraqlar toqquşması halı barədə məlumat verməməsini misal göstərmək olar.

15.3. ÖƏK heyətinə edilmiş dəyişikliklər barədə qərarlar ÖƏK-in iclaslarının protokollarında və QF-ə göndəriləcək protokollarda öz əksini tapacaq.

**Maddə 16: Maraqlar toqquşması**

16.1 ÖƏK qəbul edir ki, maraqlar toqquşmasının qarşısının alınması Qlobal Fondun bir tələbidir və buna uyğun siyasətin aparılması və onun nəticəsi olan prosedurlar bütün tərəflərin maraqlarına cavab verir.

16.2 ÖƏK xəbərdardır ki, ÖƏK heyətinin tərkibində maraqlar toqquşması hazırda mövcuddur və gələcəkdə də yaranacaq.

16.3 Mövcud olan və potensial maraqlar toqquşması barədə ÖƏK-in hər bir üzvünün və əvəzedicilərinin, Katibliyin və bütünlükdə ÖƏK-in məlumatlı olması ümumi maraqlara cavab verir.

16.4 Maraqlar toqquşmasının aradan qaldırılmasında ÖƏK aşağıdakı əsas prinsipləri rəhbər tutur:

- Maraqlar toqquşması əsaslı siyasətin və prosedurların tətbiqi vasitəsi ilə aradan qaldırılır.
- MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurları hər bir ÖƏK üzvünə, onların əvəzedicilərinə və Katiblik heyətinə tətbiq edilə bilər.
- Azərbaycan Respublikasında ÖƏK-in Katibliyi maraqlar toqquşması ilə əlaqədar bütün məsələləri müəyyənləşdirəcək, sənədləşdirəcək və arxivləşdirəcək. ÖƏK-in İdarə Heyəti ÖƏK heyəti daxilində MT ilə əlaqədar hər hansı bir məsələnin həll edilməsi həvalə edilmiş orqandır (məs. məqsədyönlü şəkildə üzvlər arasında MT-nın açıqlanmaması). Müvafiq olarsa və tələb olunarsa, MT ilə əlaqədar səciyyəvi məsələlərin həll edilməsi məqsədilə xüsusi komitə təsis ediləcək.
- ÖƏK üzvlüyün yenilənməsi məsələsini nəzərdən keçirdiyi zaman maraqlar toqquşmasının əhəmiyyətini diqqətə almalıdır.

16.5. Maraqlar toqquşması ilə bağlı məsələlər və onların qarşısının alınması və ya aradan qaldırılması üzrə ətraflı prosedurlar ÖƏK tərəfindən təsdiqlənən Maraqlar Toqquşmasının Qarşısının Alınması Siyasəti və Prosedurları sənədi ilə tənzimlənir.

## *Fəsil 4: ÖƏK-in Strukturu*

**Maddə 17: ÖƏK-in Strukturu**

ÖƏK-in strukturu İdarə heyətindən, İİV/QİÇS, Vərəm və Malyariya üzə üç Texniki İşci Qrupundan və Nəzarət Komitəsindən ibarətdir. ÖƏK əlavə komitələr yaratmaq və ya mövcud olanların adlarını və funksiyalarını dəyişmək hüququna malikdir. Yeni komitələrin yaradılması üçün prosedurlar ÖƏK-in İdarəetmə Təlimatında təsvir olunmuşdur. Bundan əlavə, zərurət olduqda, ÖƏK kənardan mütəxəssislərin cəlb olunduğu işci qruplar təsis etmək hüququna malikdir (yəni qeyri-üzvlər).

**18. ÖƏK-in İdarə Heyəti**

18.1. ÖƏK-in İdarə heyəti ÖƏK Sədri, onun Müavini və üç Texniki İşci Qruplarının koordinatorlarından ibarətdir.

18.2. ÖƏK-in İdarə heyəti ÖƏK Katibliyinin fəaliyyətinin koordinasiyasına və istiqamətləndirilməsinə, komitələrin və Texniki İşci Qrupların koordinasiyası və onların dəstəklənməsinə, eləcə də bütün ÖƏK üzvlərinin toplanmasını tələb etməyən mütəmadi və təxirəsalınmaz əlaqələrin qurulmasına cavabdehdir.

18.3. İdarə heyətinin işinin təşkili ÖƏK-in İdarəetmə Təlimatı ilə tənzimlənir.

18.4. ÖƏK İdarə heyətinin iclaslarının tezliyi İdarə heyəti tərəfindən öz funksiyalarını icra etmək zərurəti nəzərə alınaraq müəyyənləşdirilir.

**Maddə 19: ÖƏK Sədri və Sədr Müavini**

19.1. Həm hökumət, həm də yerli qeyri-hökumət sektoru nümayəndələri ÖƏK Sədri və Sədr Müavini ola bilərlər. ÖƏK Sədri və Sədr Müavini müxtəlif sektorları təmsil etməlidirlər.

19.2. ÖƏK üzvləri ÖƏK iclasında Sədr və Sədr Müavini vəzifəsinə namizədləri irəli sürür və təsdiqləyirlər. Sədr və Sədr Müavini vəzifəsinə namizədləri irəli sürərkən ÖƏK üzvləri Qlobal Fondun tövsiyələrini və Maraqların Toqquşmasının Qarşısının Alınması Siyasət və Prosedurlarına daxil edilən qaydaları rəhbər tutmalıdırlar.

19.3. Sədr və Sədr Müavininin namizədliyi səsvermədə iştirak edən ÖƏK üzvlərinin üçdən ikisindən çoxunun səs verməsi zamanı qəbul edilmiş hesab edilir.

19.4. ÖƏK Sədrinin səlahiyyətləri bunlardır:

- ÖƏK fəaliyyətinin idarəedilməsi;
- ÖƏK iclaslarının keçirilməsi;
- ÖƏK-in protokollarının, qərarlarının və məruzələrinin imzalanması;
- ÖƏK qərarlarının icrası ilə əlaqədar ümümi nəzarətin həyata keçirilməsi.

19.5. ÖƏK Sədri ÖƏK-in həyata keçirdiyi fəaliyyətə görə, həmçinin sahələrarası və idarələrarası koordinasiyaya və eyni zamanda verdiyi qərarlara görə məsuliyyət daşıyır. Sədr ÖƏK-i üçüncü şəxslər və təşkilatlar qarşısında təmsil edir.

19.6. ÖƏK Sədrinin yoxluğunda onun vəzifəsini Müavini yerinə yetirir.

**Maddə 20: Texniki İşci Qrupları**

20.1. Hal hazırda ÖƏK heyətində ÖƏK işinin effektiv və tam olaraq yerinə yetirən üç Texniki İşci Qrupları (İİV/QİÇS, vərəm və malyariya üzrə) fəaliyyət göstərir.

20.2. ÖƏK texniki işci qruplarının tərkibini müəyyənləşdirir və qrupların qarşısına qoyulan vəzifələrdən asılı olaraq namizədlərin seçim kriteriyasını təyin edir və eyni zamanda xarici texniki mütəxəssislərin tərkibini və bunun ardından onların öhdəliklərini müəyyən edir.

20.3. Texniki İşci Qruplarının koordinatorları ÖƏK üzvləridir.

20.4. Texniki İşci Qruplarının funksiyaları ÖƏK-in təsdiq etdiyi səlahiyyətlər çərçivəsində müəyyən edilir.

20.5. Qrupların koordinatorları ÖƏK-in İdarə heyətinin digər üzvləri ilə mütəmadi olaraq əlaqə saxlayır və onlarla öz vəzifə və tapşırıqlarını uzlaşdırırlar.

**Maddə 21: Nəzarət Komitəsi**

21.1. Nəzarət Komitəsi 9 nəfər üzvdən ibarətdir. Komitənin tərkibinə həm ÖƏK üzvləri, həm də ÖƏK üzvü olmayan dəvət olunmuş mütəxəssislər daxildir. Komitənin tərkibi ÖƏK iclasında təsdiqlənir.

21.2. Nəzarət komitəsinin məqsədi Qlobal Fond tərəfindən verilən qrantların Əsas Resipiyentlər tərəfindən icra olunmasına nəzarət etməkdir.

21.3. Nəzarət Komitəsinin funksiyaları aşağıdakılardır:

- Maliyyə vəsaitlərinin düzgün və vaxtında istifadəsi;
- Qlobal Fondun vəsaiti hesabına düzgün və vaxtında satınalma;
- proqramın səmərəliliyinin təmin edilməsi;
- qrantların və sub-resipiyentlərin səmərəli şəkildə idarə edilməsi;
- qrantların icrasının nəticələri və onların təsiri.

### *Fəsil 5: ÖƏK İclasları*

**Maddə 22. ÖƏK İclasları**

22.1. ÖƏK ildə 4 dəfədən az olmayaraq iclas keçirir. Zərurət halında, Sədr və Sədr Müavini əlavə iclas çağıra bilərlər. Əlavə iclaslar eyni zamanda ÖƏK üzvlərinin üçdə birinin təşəbbüsü ilə də çağırıla bilər.

22.2. İşçi qruplarının və komitələrin iclasları planlaşdırılmış cədvələ əsasən və ya zərurət olduqda keçirilir. Nəzarət Komitəsinin iclası hər rübdə bir dəfədən az olmamaq şərti ilə keçirilir.

22.3. ÖƏK iclaslarında qərarlar yekdilliklə qəbul edilir. Yekdillik əldə edilə bilmədiyi halda, qərarlar yetərsay olduqda səs vermə yolu ilə qəbul edilir. ÖƏK üzvlərinin üçdə ikisinin iştirakı yetərsayı təşkil edir.Yetərsay qaydaları iclaslarda əsas üzvlərin əvəzinə əvəzedicilərin olması halına da şamil edilir. ÖƏK qərarları əl qaldırmaqla səsvermə yolu ilə qəbul edilir. (o halda qərar qəbul edilmiş hesab edilir ki, iclaslarda iştirak edən və səs vermə hüququna sahib olan iştirakçıların yarısından çoxu səs vermiş olsun; Sədr həlledici səs hüququna sahibdir.) MT-nın Qarşısının Alınması Siyasəti və Prosedurları sənədində təsvir olunmuş istisna hallarda ÖƏK gizli səsvermə yolu ilə seçki keçirə bilər.

22.4. Səsvermənin nəticələri protokolda qeyd olunur və ÖƏK-in bütün üzvlərinə göndərilir.

### *Fəsil 6: ÖƏK Katibliyi*

**Maddə 23. Katibliyin Məqsədləri**

23.1. Katiblik ÖƏK-in daimi işçi orqanıdır. Katiblik ÖƏK-in, onun komitələrinin və texniki işçi qruplarının təchizatına və inzibati dəstəyinə, protokolların hazırlanmasına, ÖƏK sənədlərinin saxlanılmasına və Qlobal Fondun, ÖƏK və onun komitələrinin, ƏR-lərin və sub-resipiyentlərin, eləcə də İİV/QİÇS, vərəm və malyariya ilə mübarizəyə cəlb olunan digər maraqlı tərəflərin fəaliyyəti ilə əlaqədar məlumatın toplanması və yayılmasına görə məsuliyyət daşıyır.

23.2. Katiblik öz fəaliyyətində ÖƏK-in cari Əsasnaməsini və iclasların qərarlarını rəhbər tutur. Katibliyin fəaliyyəti və strukturu Katibliyin İdarəetmə Təlimatı ilə tənzimlənir. Katiblik QF tərəfindən və eyni zamanda beynəlxalq, dövlət, kommersiya və digər maraqlı təşkilatların vəsaiti hesabına maliyyələşir. Katibliyin əməkdaşları müsabiqə yolu ilə işə götürülür və ÖƏK tərəfindən təsdiq edilirlər.

### *Fəsil 7: ÖƏK-in Sənədləri*

**Maddə 24. ÖƏK-in Sənədləri**

ÖƏK-in bütün sənədləri Qlobal Fondun tələblərinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq saxlanılır və arxivləşdirilir və tələb olunarsa, təqdim edilə bilər.

***Cari Əsasnamə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir və lazım gəldikdə sənədə yenidən baxıla bilər.***